*UOT 37.0*

***Lalə Arif qızı Əbilova***
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində*
*Humanitar Kollecin müəllimi*
*https://orcid.org/0009-0006-3967-168X*

## GƏNC NƏSLİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞDIRILMASI

***Лала Ариф гызы Абилова***
*преподаватель Гуманитарного колледжа*
*при Азербайджанском Университете Культуры и Искусства,*
*диссертант по программе доктора философии*
*Бакинского Государственного Университета*

## ФОРМИРОВАНИЕ МИРОВОЗЗРЕНИЯ ПОДРАСТАЮЩЕГО ПОКОЛЕНИЯ

***Lala Arif Abilova***
*lecturer at the Humanitarian College at the Azerbaijan University of Culture and Art,*
*doctorial student in the program of doctor of philosophy of*
*Baku State University*

## FORMATION OF THE WORLDVIEW OF THE YOUNGER GENERATION

**Xülasə:** Məqalədə gənc nəslin dünyagörüşünün formalaşdırılması probleminin bu gün kifayət qədər aktual olması göstərilir və qeyd edilir ki, müasir dövrdə gənc nəslin dünyagörüşünün formalaşması mənəvi-əxlaqi tərbiyə yolu ilə həyata keçirilərsə, müsbət nəticələr əldə etmək mümkündür. Bu məsələnin öyrənilməsi xüsusilə vacibdir, çünki məktəbdə müəllimlər tərbiyə prosesi ilə bağlı bir sıra problemlərlə üzləşirlər. Buna səbəb isə sosial dəyərlərin dəyişməsidir. Bu dəyişikliklər mənəvi dəyişikliklərə gətirib çıxarır ki, bu da uşaqlara, yeniyetmələrə və gənclərə mənfi *+* təsir göstərir. Cəmiyyətin mədəni və mənəvi vəziyyəti uşaqların mənəvi-əxlaqi tərbiyəsi vəzifəsini son dərəcə əhəmiyyətli edir. Bu, indiki mərhələdə ölkənin inkişafında ən prioritet vəzifələrdən biridir.
***Açar sözlər:*** *Dünyagörüşü, sosial dəyərlər, mənəvi-əxlaqi tərbiyə, mənəvi dəyişikliklər, mədəniyyət, prioritet vəzifələr.*

**Резюме:** В статье показано, что проблема формирования мировоззрения молодого поколения достаточно актуальна на сегодняшний день, и отмечается, что если формирование мировоззрения молодого поколения в современное время будет осуществляется через духовно-нравственное воспитание, то возможно достижение положительных результатов. Изучение этого вопроса особенно важно, так как учителя в школе сталкиваются с рядом проблем, связанных с образовательным процессом. Причиной этого является изменение социальных ценностей. Эти изменения приводят к нравственным изменениям, которые негативно сказываются на детях, подростках и молодежи. Культурно-нравственное состояние общества делает чрезвычайно важной задачу нравственного воспитания детей. Это одна из самых приоритетных задач в развитии страны на данном этапе.
***Ключевые слова***: *мировоззрение, социальные ценности, духовно-нравственное воспитание, нравственные изменения, культура, приоритетные задачи.*

**Summary:** The article shows that the problem of forming the worldview of the young -+/ generation is quite relevant today, and it is noted that in modern times, if the formation of the worldview of the young generation is carried out through spiritual and moral education, it is possible to achieve positive results. Studying this issue is especially important, because teachers at school face a number of problems related to

the educational process. The reason for this is the change of social values. These changes lead to moral changes, which have a negative impact on children, adolescents and young people. The cultural and moral condition of the society makes the task of moral education of children extremely important. This is one of the most priority tasks in the development of the country at this stage.

***Key words:*** *Worldview, social values, spiritual and moral education, moral changes, culture, priority tasks.*

Dünyagörüşü insanın həyata baxışları sistemi olub, şəxsiyyətin təməlini, sütununu təşkil edir. Bitkin və sistemli dünyagörüşünə malik olan insan möhkəm həyat mövqeyi, məqsədyönlülüyü ilə seçilir. Müəyyən ideyalar və baxışlar o zaman dünyagörüşünə çevrilir ki, insan bilik və ideyaları şüurlu dərk etsin, onların həqiqiliyinə inansın, ideyaları daxilən hiss etsin, həmin ideyaları öz davranışına, gündəlik əməli fəaliyyətinə tətbiq etsin. Qəlbin iştirakı olmadan insanda əqidə, dünyagörüşü formalaşdırmaq mümkün deyildir.

İdeya və baxışların dünyagörüşünə çevrilməsi mürəkkəb prosesdir. Bunun üçün gənclərdə həyat hadisələrinə münasibəti, onları təhlil edib qiymətləndirmək bacarıqları formalaşdırmaq lazımdır.

Dünyagörüşü obyektiv aləmə, insanların ətrafdakı reallığa və özünə münasibətinə, habelə bu baxışlara görə onların inanclarına, ideallarına, fəaliyyətinə dair ümumiləşdirilmiş baxışlar sistemi kimi müəyyən edilir.

Müşahidələrdən aydın olur ki, gənc nəslin dünyagörüşünün formalaşdırılması problemi bu gün kifayət qədər aktualdır. Dünyagörüşünün formalaşması bir çox amillərlə şərtlənir ki, buraya cəmiyyət həyatı, insanın çoxcəhətli ictimai münasibətləri, müəllim və valideynlərin təsiri, təlim--++tərbiyə prosesi, informasiya vasitələri, mütaliə və s. aid etmək mümkündür.

Təlim-tərbiyə prosesində dünyagörüşünün formalaşdırılması yolu ilə şəxsiyyətin əsas mədəniyyəti tərbiyə olunur. Dünyagörüşü dünyaya (yəni təbiətə, cəmiyyətə) elmi, fəlsəfi, ictimai-siyasi, əxlaqi, estetik baxışların ayrılmaz sistemi kimi çıxış edir. İnsanın dünya ilə, cəmiyyətlə münasibəti müxtəlifdir. Praktiki və idrak fəaliyyəti prosesində insan özünü dünyanın, reallığın müəyyən aspektləri ilə əlaqələndirməyə meyllidir. Dünya və cəmiyyətlə qarşılıqlı əlaqə prosesində insan özünütanıma və təkmilləşdirmə prosesinə daxil edilir. Dünyagörüşü həm də daxili və xarici, obyektiv və subyektiv vəhdət təzahürü ilə seçilir. Dünyagörüşünün subyektiv tərəfi insanın dünyaya bütöv baxışının, özü haqqında ümumiləşdirilmiş təsəvvürünün formalaşmasından ibarətdir, sonra bu ideya insanın özünün, şəxsiyyətinin və fərdiliyinin dərk edilməsinə və təcrübəsinə çevrilir [5].

Təcrübə göstərir ki, müasir dövrdə gənc nəslin dünyagörüşünün formalaşması mənəvi-əxlaqi tərbiyə yolu ilə həyata keçirilərsə, müsbət nəticələr əldə etmək mümkündür. Bu məsələnin öyrənilməsi xüsusilə vacibdir, çünki müəllimlər və sinif rəhbərləri tərbiyə prosesi ilə bağlı bir sıra problemlərlə üzləşirlər. Buna səbəb isə sosial dəyərlərin dəyişməsidir. Bu dəyişikliklər mənəvi dəyişikliklərə gətirib çıxarır ki, bu da uşaqlara, yeniyetmələrə və gənclərə mənfi təsir göstərir.

Gənc nəslin dünyagörüşünün formalaşdırılması ilə bağlı problemlər pedaqoji və sosial baxımdan xüsusilə aktualdır. Cəmiyyətin mədəni və mənəvi vəziyyəti uşaqların mənəvi-əxlaqi tərbiyəsi vəzifəsini son dərəcə əhəmiyyətli edir. Bu, indiki mərhələdə ölkənin inkişafında ən prioritet vəzifələrdən biridir.

Mənəvi-əxlaqi tərbiyə uşağın öz ölkəsinə, cəmiyyətə, ətrafındakı insanlara, ailəsinə münasibətinin formalaşmasına kömək edir. Təbii ki, şəxsiyyət üçün əhəmiyyətli olan keyfiyyətlər nəzərdə tutulur ki, buraya - vətənpərvərlik, humanizm, intizamlılıq, kollektivçilik, düzlük və doğruçuluq, dostluq və yoldaşlıq, xeyirxahlıq, qayğıkeşlik, haqqın, ədalətin gözlənilməsi, insana hörmət hissləri və s. daxildir. Bütün bunlar kiçikyaşlı məktəblilərdə valideynlərə, yaşlılara məhəbbət, hörmət, kiçiklərə qayğı, zəiflərə, kimsəsizlərə yardım, yoldaşa, dosta kömək, düzlük, doğruçuluq, dözümlülük, halallıq, xeyirxahlıq, səbirlilik, saflıq, təmizlik və s. kimi yüksək insani keyfiyyətlərin aşılanmasını asanlaşdırır. Bu keyfiyyətlər insanın mənəvi sifətini xarakterizə edir və onun davranışına ciddi təsir göstərir.

Beləliklə, mənəvi-əxlaqi tərbiyənin vəzifəsi cəmiyyətin sosial zəruri tələblərini hər bir uşağın şəxsiyyəti üçün daxili stimullara çevirməkdən ibarətdir. Mənəvi-əxlaqi tərbiyənin əsas

məqsədi müstəqil qərarlar qəbul etməyi bacaran, əxlaqi davranış nümayiş etdirən, yəni formalaşmış dünyagörüşünə malik şəxsiyyət formalaşdırmaqdır. Mənəviyyat ideoloji əsaslar olmadan, dünyanın mənzərəsindən kənarda mövcud ola bilməz. Praktiki olaraq müəyyən dünyagörüşünü həyata keçirən əxlaq tərbiyəsi fikir və hisslər, söz və əməl, inanc və davranış, insan fəaliyyəti arasında vəhdəti təmin edən vasitədir. Mənəvi-əxlaqi tərbiyə baxışların, inancların və müvafiq əxlaqi münasibətlərin formalaşmasını əhatə edir. Bu dünyagörüşünə uyğun olan da həmin münasibətlərdir. Ona görə də heç bir mənəvi-əxlaqi tərbiyə qeyri-ideoloji və qeyri-müəyyən ideoloji əsasda mövcud ola bilməz.

Milli təhsil konsepsiyası kiçikyaşlı məktəbliləri milli və ümumbəşəri dəyərlər əsasında tərbiyə etməyi tələb edir. Bu baxımdan tədris müəssisələrində təlim-tərbiyə işinin milli-mənəvi, ümumbəşəri dəyərlər əsasında qurulması vacib və əhəmiyyətlidir.

Ümummilli Lider H. Əliyev demişdir: "Hər xalqın öz adət-ənənələri, öz milli mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə, bu bizi narahat etməlidir" [1].

Həqiqətən də, hər birimiz gənc nəslin milli-mənəvi tərbiyəsi ilə bağlı üzərimizə düşən məsuliyyəti kifayət qədər aydın dərk etsək, uşaqların tərbiyəsinə həsr olunmuş tədbirlərdə formalizmə uymarıq.

Mənəvi-əxlaqi tərbiyə sosial normalara uyğun gələn əxlaqi anlayışların, mühakimələrin, hiss və inancların, bacarıq və davranış vərdişlərinin formalaşmasına kömək edir. Əxlaq tərbiyəsi ümumbəşəri dəyərlərə, tarixi ictimai inkişaf prosesində insanlar tərəfindən işlənib hazırlanmış davamlı əxlaq normalarına, cəmiyyətin indiki inkişaf mərhələsində yaranmış yeni prinsip və normalara əsaslanır.

Pedaqoji proses çərçivəsində mənəvi-əxlaqi tərbiyənin gedişində şəxsiyyətin təməl mədəniyyətinə əsaslanaraq, özünüdərk və şəxsiyyətin formalaşması həyata keçirilir. Dünyagörüşü bütün xassələrin və şəxsi keyfiyyətlərin inteqrasiyasıdır, onları vahid bütövlükdə birləşdirir, sosial oriyentasiyanın və şəxsi mövqeyinin, vətəndaş davranışının və fəaliyyətinin növünün müəyyən edilməsində rol oynayır. Bu, gənc nəsildə düzgün konstruktiv dünyagörüşünün formalaşmasına gətirib çıxarır.

Kiçikyaşlı uşaqların dünyagörüşünün formalaşması mərhələli prosesdir. A.N. Leontyevin məcazi ifadəsinə görə, insan iki dəfə "doğulur". Bunlar şəxsiyyətin formalaşmasının əsas və çox böyük mərhələləridir. İlk doğuş məktəbəqədər yaş dövrünə aiddir və motivlərin ilk iyerarxik münasibətlərinin qurulması, birbaşa motivlərin sosial normalara ilk tabeçiliyinin baş verməsi ilə xarakterizə olunur. Yəni burada şəxsiyyətin birinci meyarının doğulması baş verir. İnsanın ikinci doğulması yeniyetməlik dövründə baş verir və motivlərini həyata keçirmək istəyi və qabiliyyətinin olması, onları yenidən tabe etmək üçün fəal işin aparılması ilə ifadə olunur. Bu özünüdərk, özünü idarə etmə, özünütərbiyə qabiliyyəti şəxsiyyətin ikinci əlamətinin, onun meyarının əksidir [4].

Mənəvi-əxlaqi tərbiyə prosesində uşaq, əgər onun baxışlar sistemi şüurun, təcrübənin vəhdətinə əsaslanırsa, dünyaya bütöv bir baxış əldə edir. Bu o deməkdir ki, dünyagörüşü bilavasitə praktiki təlim-tərbiyə fəaliyyətinin gedişində iradəyə, intellektə, hisslərə təsir hesabına formalaşır.

A.S. Makarenko deyirdi: "Tərbiyə işinin əsl mahiyyəti... heç də sizin uşaqla təklikdə söhbət etmənizdən, uşağa müstəqil təsir göstərməyinizdən ibarət deyil, ailənizin, şəxsi və ictimai həyatınızın təşkilindən, uşağın həyatını təşkil etməkdən ibarətdir" [3].

Müəllimin sosial, peşə və mənəvi mövqeyi də şagirdlərin dünyagörüşünün formalaşmasında ən mühüm amildir. Tədris prosesi o zaman uğurlu ola bilər ki, şagirdin müəllimə inamı olsun. Mənəvi-əxlaqi mədəniyyətin formalaşması üçün müəllim müəyyən dünyagörüşünün dirijoru deyil, bir növ mənəvi tərbiyəçi statusu almalıdır.

Müəllim öyrədəndir, tərbiyə edəndir. Buna görə də gələcək cəmiyyətin necəliyi də çox vaxt müəllimdən asılı olur. Doğru deyilmişdir ki, məktəbi, müəllimləri güclü olan xalq və millət güclü olar.

Müəllim bu gün yaşayır və fəaliyyət göstərir. Ancaq onun fəaliyyəti gələcəyə doğru yönəlmiş fəaliyyət olur. O, bugünkü işi ilə gələcəyi qurur, gələcək cəmiyyəti hazırlayır. Bu ba-

xımdan, onun əməyi, işi xalq üçün, onun gələcəyi üçün sərf olunan şərəfli əməkdir.

Tərbiyəvi təsir müəllimin təhsil alanların şüuruna, iradəsinə, emosiyalarına, onlarda tələb olunan keyfiyyətlərin formalaşdırılması və qarşıya qoyulan məqsədlərə uğurla nail olunmasını təmin etmək mənafeyində onların həyat və fəaliyyətinin təşkilinə təsiridir. Pedaqoqların qeyd etdiyi kimi, müəllim dünyagörüşünü formalaşdırır, fərdin özünüdərkini inkişaf etdirir.

Gənc nəslin dünyagörüşünün formalaşdırılmasında aşağıdakı prinsiplərə əməl olunması nəzərdə tutulur:

1) Ənənələr üzrə tərbiyə.
2) Əməkdaşlıq prinsipi.
3) Tədris prosesinin bütövlüyü prinsipi.
4) Sistemlə təşkil edilmiş yanaşma.
5) Şəxsiyyət mərkəzli yanaşma.
6) Tarixi yaddaşın qorunması prinsipi.

Bundan əlavə, gənc nəsildə mənəvi-əxlaqi tərbiyənin və dünyagörüşünün formalaşdırılmasının istiqamətlərini xüsusi qeyd etmək lazımdır, yəni söhbət hərbi-vətənpərvərlik, bədii-estetik, turizm-diyarşünaslıq, idman və s. gedir. Əsasən sinifdənkənar tədbirlərdə hərbi-vətənpərvərlik və bədii-estetik istiqamətlərə xüsusi diqqət yetirilir. Bu zaman məktəbdə müəllimlər oyun, ünsiyyət və tədqiqat metodlarından istifadə edirlər.

Kiçikyaşlı məktəblilərin tərbiyəsində uşaqlar arasında humanist münasibətlərin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan mehribanlığa, nəzakətə, etik məsələlərə həsr olunmuş tematik dərs saatlarının, bədii ədəbiyyat mütaliəsinin, uşaqların hərəkətləri və dünyagörüşü ilə bağlı müzakirələrin, müxtəlif tədbirlərin keçirilməsi məqsədəuyğundur.

Müşahidələr göstərir ki, milli mənlik şüuru və vətənpərvərlik hisləri ailədən və ətraf mühitdən qaynaqlanır. Yeniyetmə və ya gəncin nə dərəcədə vətənpərvər olması da, onun böyüyüb boya-başa çatdığı məkandan və ətrafındakı insanlardan, cəmiyyətdən asılıdır.

Təcrübə sübut etmişdir ki, məktəb həyatının gənc nəslə verdiyi dəyərlərin çeşidini heç bir həyat verə bilməz. Əgər ata-ananın tərbiyə prosesində nə qədər böyük rolu varsa, gənclərin formalaşıb cəmiyyətdə mövqe tutmasında, şəxsiyyət kimi formalaşmasında müəllimin də bir o qədər əməyi olur. Ona görə də həmişə ən böyük dahilər qazandıqları hər bir nailiyyətə görə müəllimlərinə minnətdar olduqlarını bildiriblər.

Təlim-tərbiyə insan psixologiyasını formalaşdıran mühüm amil olduğundan onu düzgün istiqamətləndirmək lazımdır. Uşaqların həyata baxışları, qavrayışı, nitqi, ailə tərbiyəsi və mədəniyyəti eyni olmadığı üçün təlim-tərbiyə işi hər bir müəllimdən pedaqoji ustalıq tələb edir.

Ə. Sarıyev "Müəllim-şagird münasibətləri haqqında" adlı əsərində bu barədə yazır: "Şagirdlər kollektivdə baş verən hadisələri görür və ondan nəticə çıxarmağı bacarırlar. Ona görə də kollektivin bütün üzvləri ilə səmimi, təbii, sadə, qayğıkeş, ədəbli və nəzakətli olmaq kollektiv münasibətlərin yaranmasında hava, su kimi vacibdir. Kollektivdə ayrı-seçkilik, kobudluq, ikiüzlülük, yalançılıq və s. məktəbyaşlı uşaqlara daha pis təsir edir, onlarda başqalarına qarşı mənfi münasibətlərin yaranmasına şərait yaradır, onların bir şəxsiyyət kimi formalaşmasına maneçilik törədir" [2, s. 10-11].

Uşaqlarda dünyagörüşünün təməlinin qoyulmasında, sosiallaşmasında, insana, vətənə, torpağa, xalqına, millətinə münasibətinin formalaşmasında ailə mühitinin rolu böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, ailə tərbiyəsi şəxsiyyətin formalaşmasında ilk pillədir, sonrakı tərbiyə bu pillə üzərində qurulur. Məhz bu səbəbdən ailənin və məktəbin tərbiyəvi təsirlərinin uzlaşdırılması zəruridir.

Ailə ilk kollektivdir ki, uşaq adamlarla ünsiyyətin, bu və ya digər sosial vəzifələri yerinə yetirməyin ilkin sosial təcrübəsini burada toplayır. Ata-ana uşağın ilk tərbiyəçiləridir və onun əsil vətəndaş kimi böyüməsi üçün cəmiyyət qarşısında da ilk növbədə onlar məsuliyyət daşıyırlar. Ailədə uşaq ailənin başqa üzvləri ilə ünsiyyəti vasitəsilə sosial münasibətlərə daxil olur. Uşağın xarakteri ailədə formalaşır.

Uşaqların ailədə düzgün tərbiyə edilməsi onlarda dəyərli insani keyfiyyətlərin yaranmasına gətirib çıxarır. Bu baxımdan ailədə mənəvi, fiziki, əqli, əxlaqi, əmək, estetik tərbiyənin kompleks aparılması vacibdir. Uşağın ətraf aləmin obyektlərini və sosial münasibətləri müstəqil, fəal mənimsəməsi üçün təhlükəsizlik şəraitinin təmin edilməsi əsas məsələlərdəndir.

Müəllim valideynlə bərabər hüquqlu tərəfdaş olmaqla uşaqların inkişafyönlü xoşbəxt uşaqlığını təmin edən tərəfdir. Müəllimin hər bir

ailəyə diferensial və fərdi yanaşması mümkündür. Ailənin həyat tərzinin öyrənilməsi müəllim və valideynlərin qarşılıqlı marağı üzərində qurulmalıdır. Hər bir şagirdə fərdi yanaşmanın həyata keçirilməsində ailənin rolunun aşkarlanması və bu məsələ üzrə məktəb ilə ailənin əməkdaşlığı əhəmiyyətlidir.

Apardığımız müşahidələr belə bir qənaətə gəlməyə əsas verir ki, gənc nəslin milli mənəviyyatımız ruhunda tərbiyə olunması üzrə işə anaya, insana, doğma dilə məhəbbət kimi uşağın dünyaya gəldiyi gündən başlamaq lazımdır. Bu, hər bir valideynin müqəddəs vəzifəsidir. Bünövrəsi bu dövrdən qoyulmuş düzgün əxlaq üzərində kiçikyaşlı məktəblilərin tərbiyəsini səmərəli təşkil etmək asanlaşır.

Beləliklə, bitkin və sistemli dünyagörüşü gənc nəslin hərtərəfli inkişafının, şəxsiyyət kimi formalaşmasının mühüm göstəricisi olub, insanın davranışının, fəaliyyətinin tənzimləyicisi kimi çıxış edir. Dünyagörüşü yetişməkdə olan gənc nəslin həyat qayəsini müəyyən edir, xarakterini möhkəmlədir. Belə insan möhkəm həyat mövqeyi, məqsədyönlülüyü ilə seçilir.

**Problemin aktuallığı.** Pedaqoji proses çərçivəsində mənəvi-əxlaqi tərbiyənin gedişində şəxsiyyətin təməl mədəniyyətinə əsaslanaraq, özünüdərk və şəxsiyyətin formalaşması həyata keçirilir. Dünyagörüşü bütün xassələrin və şəxsi keyfiyyətlərin inteqrasiyasıdır, onları vahid bütövlükdə birləşdirir, sosial oriyentasiyanın və şəxsi mövqeyinin, vətəndaş davranışının və fəaliyyətinin növünün müəyyən edilməsində rol oynayır. Bu, gənc nəsildə düzgün konstruktiv dünyagörüşü inamlarının formalaşmasına gətirib çıxarır.

**Problemin elmi yeniliyi**. Dünyagörüşünü formalaşdırmaqla gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin daha da güclənməsinə, uşaqlarda vətəndaşlıq, milli-mənlik hissinin formalaşmasına nail olmaq ən ümdə məsələlərdən olduğu üçün məqalədə bu məsələlər təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbdə, məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər faydalana bilər.

**Ədəbiyyat:**

1. Əliyev, H.Ə. Milli mənəvi və dini dəyərlərimiz haqqında bəyanatı. // Azərbaycan müəllimi. -2001, 16-22 avqust.
2. Sarıyev, Ə. Müəllim-şagird münasibətləri haqqında. -Bakı: Maarif, -1981, -s. 10-11.
3. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. I cild, -Bakı: Maarif, -1983, -s. 267-277
4. Леонтьев, А.Н. Проблемы развития психики. Изд-е 4-е. -М., 1981, -511 с.
5. Ширяев, М.А., Джишкариани Т.Д. Проблемы духовно-нравственного воспитания подростков. http://www.scienceforum.ru/2013/82/5288

**E-mail:** *abilzade.guler@gmail.com*
**Rəyçilər:** *ped.elm.dok.,prof.* **L.N. Qasımova**
*ped.elm.dok.,dos.* **Ş.A. Baxışova**
**Redaksiyaya daxil olub:** 11.07. 2023